**Fyodor Dostoyevski**

# BƏYAZ GECƏLƏR

*SENTİMENTAL HEKAYƏ*

*BİR XƏYALPƏRƏSTİN GÜNDƏLİYİNDƏN*

Tərcüməçi:
Yusif Əzimzadə

qanun nəşriyyatı

**Фёдор Достоевский**

# БЕЛЫЕ НОЧИ

Bəyaz gecələrin birində xəyalpərəst oğlan Nastya adlı bir qızla tanış olur, zaman keçdikcə ona vurulur. Amma Nastya ona dost, qardaş gözü ilə baxır. Qız keçmiş monoton həyatından, ilk məhəbbətindən və sevdiyi insanın onu necə tərk etdiyindən danışır. Xəyalpərəst oğlan Nastyaya yardım edir, ona mənəvi dəstək olur.

Oğlanın duyğularını layiqincə qiymətləndirməyə can atan Nastya bir gün onun sevgisinə cavab verməyi qərara alır. Lakin əvvəlki sevgilisi qayıdan kimi qız dostunu tərk edir. Oğlan Nastyanı bağışlayır və yenə sevməyə davam edir...

Sankt-Peterburqda yaşanan bu hekayət, daxili narahatlıqları ilə mübarizə aparan bir gəncin həyatını təsvir edir. Əsər, qarşılıqsız sevginin əzabını və insan ruhunun dərinliklərini araşdırır.

**Фёдор Достоевский  БЕЛЫЕ НОЧИ**
**Fyodor Dostoyevski   BƏYAZ GECƏLƏR**

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 120x185 mm
Cild: yumşaq
Səhifə sayı: 96

| | |
|---|---|
| Naşir: | Şahbaz  Xuduoğlu |
| Tərcüməçi: | Yusif  Əzimzadə |
| Redaktor: | T.Cəmilova |
| Korrektorlar: | N.Qasımova |
| | R.Qasımova |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-566-8

© Qanun Nəşriyyatı, 2019; 2025; 2026
© "Gənclik" 1985
© Fyodor Dostoyevski, 1848

*...Bəlkə bundan ötrü yaranmışdı o:*
*Bütün həyatında yalnız bircə dəm*
*Olaydı qəlbinə ən yaxın həmdəm!..*
***İ.V.Turgenev***

# BİRİNCİ GECƏ

Gözəl bir gecə idi, elə gecə ki, sevimli oxucum, belə gecələri biz ancaq gəncliyimizdə hiss edə bilərik. Səma elə ulduzlu, elə parlaq idi ki, ona baxan qeyri-ixtiyari öz-özünə bu sualı verərdi: “Doğrudanmı belə bir səma altında müxtəlif xasiyyətli, acıqlı və şıltaq insanlar yaşayır?” Bu, yeni sualdır, sevimli oxucum, həm də çox yeni, ancaq Allah eləsin ki, bu sual sizin qəlbinizdə tez-tez oyansın!.. Müxtəlif şıltaq xasiyyətli və acıqlı cənablar haqqında danışarkən mən həmin gün ərzində özümün təmiz davranışımdan söhbət açmaya bilmərəm. Səhərdən nə isə, qəribə bir kədər mənə əzab verməyə başladı. Birdən mənə elə gəldi ki, hamı məni tərk edir, hamı məndən uzaqlaşır. Əlbəttə, haqlı olaraq soruşa bilərlər: “Hamı, yəni kim?” Bu ona görə haqlı sualdır ki, səkkiz ildən bəri Peterburqda yaşadığıma baxmayaraq, demək olar, özümə heç bir tanış tapa bilməmişəm. Lakin tanış mənim nəyimə lazımdır? Onsuzda bütün Peterburq mənə ta-

nışdır bax, elə bunun üçündür ki, bütün Peterburq yığışıb yaylağa köçərkən mənə elə gəldi ki, hamı məni tərk edir. Tək qalmaq məni qorxutdu və nə üçün darıxdığımı bilmədən, dərin bir kədər içərisində düz üç gün şəhəri gəzdim. Nevskiyə, bağa, Sahil küçəsinə, xülasə, hara getdimsə, bütün il ərzində həmin yerdə, həmin saatda rast gəlməyə adət etdiyim adamların heç birini görə bilmədim. Onlar, şübhəsiz, məni tanımırdılar, amma mən onları tanıyıram, yaxşı tanıyıram. Mən onların sir-sifətinə demək olar ki, öyrəşmişəm, onlar şən olanda mən də baxıb sevinirəm, qanları qara olanda isə qüssələnirəm. Mən Allahın hər günü, müəyyən bir saatda Fontankada təsadüf etdiyim bir qoca ilə demək olar ki, dostlaşmışam. Onun sifəti təkəbbürlü və düşüncəlidir. Həmişə öz-özünə nə isə pıçıldayır və sol əlini havada yelləyir, sağ əlində isə uzun, qızıl dəstəli çəlik var. O da mənimlə mehribandır və ürəkdən mənə hörmət bəsləyir. Əgər müəyyən saatda Fontankanın həmin yerində qoca dostuma rast gəlməsəm, əminəm ki, o kədərlənər. Bax, buna görə də biz, bəzi hallarda, xüsusilə kefimiz yaxşı olanda bir-birimizə az qala baş əyib keçirik. Bu yaxınlarda, arada tam iki gün görüşməyib, üçüncü gün bir-birimizə rast gəldiyimiz zaman salamlaşmaq üçün papaqlarımızı çıxarmaq istəyirdik ki, xoşbəxtlikdən vaxtında ayıldıq, əllərimizi aşağı saldıq və təəssüflə bir-birimizin yanından ötüb-keçdik. Mənə evlər də tanışdır. Mən yol gedərkən tanıdığım hər bina san-

ki məndən qabağa yüyürüb, küçənin başında durur, bütün pəncərələrindən mənə baxır və az qala deyir: “Salam! Necəsiniz? Mən də, Allaha şükür sağ-salamatam, may ayında üstümə bir mərtəbə də artıracaqlar”, yaxud: “Əhvalınız necədir? Məni sabah təmirə verirlər”, ya da: “Az qalmışdı ki, yanıb kül olum, özümdə bərk qorxmuşam” və ilaxirə. Onların içərisində mənim sevimli, yaxın dostlarım var; bu yay fəsli onlardan biri memarın yanında müalicə olunmaq fikrindədir. Mən hər gün qəsdən gedib yoxlayacağam ki, başdansovma müalicə eləməsinlər, pərvərdigara, sən özün onu hər bəladan saxla!.. Açıqçəhrayı rəngli gözəl bir evciyin başına gələn hadisəni heç vaxt unutmaram. Bu, daşdan tikilmiş balaca bina, qonşuluğundakı kobud binalara elə məğrur-məğrur baxırdı ki, hər dəfə qabağından ötəndə məni elə mehriban-mehriban süzürdü ki, ürəyim fərəhlə dolurdu. Keçən həftə yenə tanış küçə ilə gedirdim, dönüb dostuma baxanda birdən qulağıma şikayətli qışqırıq gəldi: “Ah, məni sarı boya ilə rəngləyirlər!” Canilər! Vəhşilər! Onlar heç bir şeyə – nə sütunlara, nə qapı-pəncərə haşiyələrinə rəhm etmirlər, dostum başdan-ayağa bülbül kimi sap-sarı idi. Bu hadisə kefimi elə pozdu ki, hirsimdən gözlərim yaşardı; mən, üzündə ölü rəngi çəkilmiş, eybəcər hala salınmış zavallı dostumla görüşməyə, ona baxmağa indi də cürət eləyə bilmirəm.

Oxucum! Artıq siz, mənim bütün Peterburqla necə tanış olduğumdan xəbərdarsınız.

Yuxarıda söylədiyim kimi, mən öz narahatlığımın səbəbini öyrənənə qədər üç gün əzab çəkdim. Küçəyə çıxanda bu əzab daha da artırdı. (O yoxdur, bu yoxdur, o birisi hara gedib!) Evdə də elə darıxırdım ki, özümə yer tapa bilmirdim. Bunun səbəbini öyrənmək üçün iki gecə fikirləşdim. Yaşadığım bu kiçik bucaqda nəyim çatışmır? Nə üçün evdə özümü pis hiss edirəm? Bu fikirlərlə dönüb, yaşıl rəngli, his basmış divarlara, Matryonanın çox işgüzarlığı sayəsində hörümçək torları ilə örtülmüş tavana heyrətlə baxırdım, ev şeylərini başdan-başa nəzərdən keçirirdim, hər kürsünü yoxlayırdım, bəlkə, deyirdim, darıxmağımın səbəbi bunlardır? (Bir kürsü həmişəki yerindən tərpənəndə dərhal əsəbiləşirdim.) Dəfələrlə pəncərədən boylanıb küçəyə tamaşa eləyirdim, ancaq əbəs yerə, heç bir yüngüllük duymurdum! Mən, hətta, Matryonanı çağırıb, hörümçək torlarını təmizləmədiyi və ümumiyyətlə səliqəsizliyi üçün onu məzəmmət etdim; o isə yalnız təəccüblə mənə baxdı və bir söz demədən çıxıb getdi, hörümçək torları indi də əvvəlki qayda ilə öz yerindən asılıb qalıb. Nəhayət, ancaq bu gün səhər işin nə yerdə olduğunu başa düşdüm. Axı, adamlar məni tək qoyub, yaylağa əkilirlər! Belə yersiz bir sözə görə sizdən üzr istəyirəm, lakin elə halda idim ki, dəbdəbəli sözlər heç yadıma düşmədi... Çünki hamı – Peterburqda olan hər kəs yaylağa köçmüşdü və ya köçməyə hazırlaşırdı; çünki özünə fayton tutan hər hansı mötəbər görkəmli, hörmətli ailə

sahibinə çevrilirdi; bu cənab öz adi vəzifələrini yerinə yetirəndən sonra ailəsilə birlikdə xüsusi bağına köçürdü; çünki indi hər yoldan ötən şəxsin ayrıca bir görkəmi vardı, elə bil o, rast gəldiyi adamlara demək istəyirdi: "Cənablar! Biz burada elə-belə, müvəqqəti yaşayırıq, iki saatdan sonra yaylağa köçəciyik!" Bir də görürdüm ki, kiminsə nazik, qar kimi ağ barmaqları tanıdığım bir evin pəncərəsini içəridən taqqıldadır, sonra pəncərə açılır, gözəl bir qız küçəyə boylanır, gülsatanı çağırır, – o saat bilirdim ki, qız bu gülləri, şəhərin cansıxıcı bürküsündə baharın gözəlliyi və çiçəklərin ətrilə nəşələnmək xatirinə almır, ona görə alır ki, tezliklə o da yaylağa köçəcək və bu gülləri özü ilə aparacaqdır. Hələ bu bir yana dursun, mən, təbir caizsə, öz kəşflərimdə elə müvəffəqiyyətlər əldə etmişdim ki, kimin hansı yaylaqda yaşadığını bir baxışla, yanılmadan təyin eləyə bilirdim. Kamennı və Aptekarski adalarının, yaxud Peterqof yolu ətrafının sakinləri öz incə hərəkətləri, qəşəng yay geyimləri və şəhərə gəldikləri zaman mindikləri gözəl dilcanlarla başqalarından fərqlənirdilər. Parqolovoda və ondan bir az uzaqda yaşayanlar adamın diqqətini dərhal öz ehtiyatlı və təmkinli, ağır davranışları ilə "cəlb edirdilər"; Krestovski adasından gələnlərin üzü adətən həmişə sevincli olurdu. Bəzən küçədə dayanıb, yaylağa gedənlərə tamaşa edirdim; budur, köç arabalarının sürücüləri, əlləri cilovlu, uzun bir cərgəyə düzülüb, atların yanınca tənbəl-tənbəl yeriyirlər, arabalar hər

cür əşya ilə-masa, kürsü, Türkiyədən, yaxud başqa yerdən gətirilmiş divan və qeyri ev müxəlləfatı ilə dağ kimi yüklənmişdir, hələ bu şeylər az imiş kimi, yükün üstündə arıq bir aşpaz qadın da əyləşib, ağasının malını göz bəbəyi kimi qoruyur; bu yanda isə ev avadanlığı  ilə yüklənmiş qayıqlar Neva, ya da Fontanka sularında Qara çaya tərəf, yaxud adalara sara üzürlər, – bu arabalara və qayıqlara baxdıqca onların sayı mənim gözlərimdə artır, onu, yüzü keçirdi, elə bil hər şey köç karvanlarına dönüb yaylaqlara axışırdı, sanki bütün Peterburq azacıq sonra boş bir səhraya çevriləcəkdi; nəhayət, bütün bunlar məni elə bir vəziyyətə gətirdi ki, varlığımı bürüyən həya, təhqir və kədər hisslərindən nə edəcəyimi bilmədim; yaylaqda mənim heç kəsim və heç nəyim yox idi. Mən qabağıma çıxan hər hansı bir arabada, hər hansı mötəbər görkəmli cənabın faytonunda getməyə hazırdım; lakin heç kəs, bəli, heç kəs məni dəvət eləmirdi; sanki məni unutmuşdular, sanki mən onların nəzərində həqiqətən yad bir adam olmuşdum!

Mən uzun müddət və çox gəzdim, belə ki, adətim üzrə, harada olduğumu tamamilə unutduğum vaxt birdən xəyalatdan ayılıb, özümü şəhər darvazasının yanında gördüm. Bir anda qəlbimə sevinc doldu və mən şəhər darvazasının o tərəfinə keçdim, şumlanmış çöllərin və yaşıl çəmənlərin arası ilə yeriməyə başladım, yorğunluğuma baxmayaraq, üstümdən bir yükün tədricən yox olub getdiyini duydum. Yoldan